# Nurlu ömür yolu

**Azər Mirzəyev can yanğısı ilə xalqı, Vətəni üçün yaşayıb-yaradan, elinə-obasına sədaqət nümunəsi olan işıqlı şəxsiyyətlərdəndir. Onu insanların gözündə müdriklik zirvəsinə qaldıran nəcib həyat amalı, bir də xeyirxah məqsədləridir. Azər müəllim kimi nəcib əməllərlə cəmiyyətdə tanınmaq, seçilmək, nümunə göstərmək böyük xoşbəxtlikdir. Bu, mənəvi-əxlaqi kamilliyə malik, yurdunu ilahi bir məhəbbətlə sevən insan ömrünün 56 yaşına qədəm qoyub. Həyat yolu Vətəninə, millətinə bağlılığıyla olduqca şərəflidir**



Nəcibliyi, xeyirxahlığı özünün həyat kredosu sayan Azər Mirzəyev mərd, hünərli, elə könlündə sevgi payı yaşadan adamlarıyla alnıaçıq yaşayan Şərur rayonunun Qarabağlar (indiki Kəngərli) kəndində dünyaya gəlib. Bəli, Azər el-obasında yurdunun sevincindən, qürurundan, qarlı zirvələrin məğrurluğundan, nurlu göylərin genişliyindən könül dünyasına incilər düzə-düzə boy atır. Qarabağlarda orta təhsilini başa vuranda bu saf, duru oğlan yurd-yuvasının ilqara düz ilqar verən igidləri sırasında görünür. Elə buna görə də onu əsl övlad məhəbbətilə sevirlər. Ürəklərdə yuvalandığı gündən Azər üçün Vətənin, xalqın xoşbəxtliyi bütün arzuların zirvəsinə qalxır. Qarabağlılar xoş təbiətli, nəcib, mehriban xislətli gəncin ali təhsil almasını, bilikli, savadlı olmasını ürəkdən istəyirdilər. Belə ki, ləyaqətli, gözütox, qəlbi pak insanların arzusu da təmiz olur. Elə buna görə də xalqın vətənpərvər oğlu elmdən kənar qala bilməzdi. Fəqət, Azər el-obanın etimadına cavab kimi hər əməli ilə həyatda iz qoymaq üçün özünə müəllimlik yolu seçir. Tam şəkildə dərk edir ki, elmlə insanların gözünü açmaq, onların zehnini maarif, mədəniyyət işığı ilə nurlandırmaq ən şərəfli işdir. Və saf düşüncəsi, dürüst amalı, xalqına fayda vermək əzmi onu Naxçıvan Dövlət Universitetinə gətirir. Uğurla imtahan verib, universitetin tarix-ədəbiyyat fakültəsinə qəbul olur.

Tələbə Azər ali məktəbdə oxuduğu vaxt öz istedadı, elmə olan böyük marağı, ən əsası, zəhmətsevərliyilə fərqlənir. Geniş dünyagörüşü, zəngin daxili-mənəvi aləmi onu universitetdə hamıya sevdirir. Azər isə 1980-ci ildə universiteti müvəffəqiyyətlə başa vuranda dünyada özündən xoşbəxt insan tanımır.

Təyinatla Lənkəran rayonunun Biləsər kənd orta məktəbinə göndərilir. Burada Azərbaycan dili və ədəbiyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. Əlinə jurnal alıb sinif otağına daxil olanda fərəhdən, sevincdən ürəyi köksünə sığmır. İlk gündən şagirdlərin qarşısına ürəyi dolu, sinəsi ilhamlı çıxır. Birinci amalı, məqsədi də xalqımızın işıqlı sabahları üçün bilikli, savadlı, Vətəni ürəkdən sevməyi bacaran gənclər yetişdirmək olur. Peşəsinə vurğunluğu, ixtisasını yüksək səviyyədə tədris etməsi gənc Azəri tezliklə şagirdlərinə sevdirir. Başlıcası, doğma ana yurdu Qarabağlarda olduğu kimi, Lənkəranda da cəmiyyət arasında hörmət və nüfuz qazanır. İnsanların həyatına nur çiləndikcə, saf, təmiz ürəklərin sayı da artır. Bir qayda olaraq müəllimlik peşəsilə Vətəninə, xalqına xidmət etməkdən zövq alır. Beş il Biləsər kənd orta məktəbində çalışır. Müəllim adını hər şeydən uca tutduğuna, eləcə də şagirdlərinə yalnız düzlük, mərdlik, Vətənə bağlılıq, məhəbbət aşıladığına görə bütün bu ötən illər Azər müəllimin həyatında, sənət taleyində silinməz, fərəhli naxışlar salır.

Azər Mirzəyev sonralar fəaliyyətini Masallı rayonunun Dəmirçi kənd əsas məktəbində dil-ədəbiyyat müəllimi kimi davam etdirir. Həmişə yeniliklər axtarışında olan Azər müəllim öz gəlişi ilə məktəbə yeni ab-hava gətirir. Sevib-seçdiyi dil-ədəbiyyat fənninin incəliklərini, saflığını şagirdlərə böyük həvəslə öyrədir. Azər müəllimin dərsinə maraq artdıqca nəinki məktəbdə, qısa zaman kəsiyində bütün Masallıda nüfuzu yüksəlir. Onun dərin savadı, etik-mənəvi davranışı, insani keyfiyyətləri, yaxşı əməlləri məktəbin adına uğur gətirir. 1989-cu ildən 1991-ci ilədək bu tədris ocağında çalışır. Həmişə dərslərini sevə-sevə tədris edir, ona qəlbinin odunu, hərarətini verir. Beləcə, cəmiyyət üçün Vətənini, xalqını, dövlətini sevmək vətənpərvər ruhlu gənclər yetişdirməklə el gözündə ucalır, doğma adam kimi insanlara əzizləşir.

1991-ci il Azər müəllimin taleyində də acı fəlakət dövrü oldu. Belə ki, yolunu azmış erməni daşnakları doğma Naxçıvanın Kərki kəndinə hücum edirlər. Ulu yurdunu canından artıq sevən kərkililər düşmənə layiqli cavab verirlər. Azərbaycanın böyük oğlu, dahi şəxsiyyət, xalqımızın ümummilli lideri Heydər Əliyevin çağırışına cavab olaraq hamı Naxçıvanın müdafiəsinə qalxır. Bu zaman əsl ziyalı, həqiqi müəllim Azər Mirzəyev Masallıda sakitcə dərs deməyi özünə sığışdırmır. Vətəninin taleyinə biganə olmayan ziyalı kimi, ulu öndərin çağırışına könüllü qoşularaq Naxçıvanın ilk qaçqın kəndi - Kərkinin harayına yetir. Zamanın çətinliklərinə qalib gələrək Kərki kənd məktəbinin direktoru seçilməklə, həm də Heydər Əliyev idarəçilik fəlsəfəsinin alovlu təbliğatçısına çevrilir.

A.Mirzəyev dörd il qaçqın kənd məktəbində direktor kimi fəaliyyət göstərir. Sözün əsl mənasında, o burada öz işində peşəkar və vətənpərvər fəaliyyət nümayiş etdirir. Müəllimlərə, şagirdlərə qarşı həssas, qayğıkeş münasibət göstərir. Öz vəzifə borcunu vicdanla, şərəflə yerinə yetirir. Bunlarla bərabər, Kərki kənd camaatına xeyirxahlıq əlini uzadır, çətinə düşənə maddi-mənəvi dayaq durur. Kərkidə vəziyyət qaydaya düşəndən sonra Azər müəllim yenidən ailə vəziyyəti ilə əlaqədar Masallının Dəmirçilər kənd əsas məktəbinə qayıdır. Zəngin təcrübəyə malik, ən yüksək əxlaqi keyfiyyətləri özündə cəm edən gözəl ziyalı Azər müəllim əməksevərliyi, nəcib pedaqoji fəaliyyətilə seçilir. Qəlbinin hərarətini, gözünün nurunu ilk gündən şagirdlərinə verir. Şagirdləri də onun kimi mübariz, mətin, Vətənə layiqli övlad olurlar. Neçə-neçə şagird Azər müəllimin ağıllı məsləhəti ilə özlərinə xoşbəxt həyat yolu seçir. Qazandığı böyük nailiyyətlər bir daha onu Masallıda hörmət, nüfuz sahibi edir. Xalqın işıqlı gələcəyi üçün gecə-gündüz yorulmadan çalışan, bütün eşqini, məhəbbətini gənc nəslin təlim-tərbiyəsinə həsr edən Azər Mirzəyevi Dərmirçilər məktəbinə direktor seçirlər. 2008-ci ilə kimi bu təhsil ocağında rəhbər olur.

Gözəl insan, qayğıkeş rəhbər, görkəmli ziyalı, müdrik şəxsiyyət kimi özündən sonra sözün həqiqi mənasında ürəkaçan yadigarlar saxlayır. Başlıcası isə, Azər müəllimin elmi müdrikliyi, yorulmaz fəaliyyəti, eyni zamanda tükənməz həyat eşqinə malik olması nəticəsində məktəbdə təhsilin keyfiyyəti, səmərəliliyi xeyli yüksəlir, rayonda özünəməxsus yer tutur

Hazırda yeddi ildir ki, Azər Mirzəyev Masallı rayonunun ən böyük yaşayış məntəqəsi olan Boradigah qəsəbəsi Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbin direktorudur. Adəti üzrə o, yenə də yüksək şəxsi mənəvi-əxlaqi dəyərləri, xalqına, vətəninə, eləcə də dövlətinə vicdanlı xidmətilə rayonda çoxlarına layiqli bir nümunədir. Seçdiyi müqəddəs yolunu ləyaqətlə, şərəflə gedir. Humanist, xeyirxah insan olan Azər müəllim çalışdığı işdə işıqlı, nurlu gələcəyimizin məsuliyyətini öz çiyinlərində daşımağı bacaran şəxsiyyətlər sırasındadır. Elə buna görə də həyatda xoşbəxtliyi sevib-seçdiyi peşəsi ilə bağlayır. Müəllim şərəfi, nüfuzu onun simasında xalqın gözündə ucadan da uca görünür. Müəllim adı ilə hörmət qazandığı üçün Azər Mirzəyevin həyatı ən şərəfli həyatdır.

Bəli, Azər Mirzəyev direktor işlədiyi müddətdə məktəbin siması dəyişib, müəllim kadrları xeyli təkmilləşib, işgüzarlıq artıb. O, bacarıqlı rəhbər olmaqla, məktəbin daimi inkişafından ötrü yaradıcı axtarışlar aparır. Onun təcrübə, bilik və bacarığından faydalananlar həmişə uğur qazanırlar.

Məktəbin tarix müəllimi Arzuman İsmayılov deyir: "Azər Mirzəyevin kamil pedaqoji keyfiyyətləri, daxili mənəvi mədəniyyəti, həyatda xeyirxah əməlləri bizə əsl nümunə, örnəkdir. İşinin ustası olaraq tanınır, bütün masallılıların dərin sevgisini qazanıb. O, xalqının gələcəyini düşünür, sanki millətinin zehnini işıqlandırmaq üçün yaşayır. Məktəbi öz ailəsi bilir. Başına işıqlı, zəkalı müəllimlər toplayıb. Təmiz, saf adam olduğuna görə təhsil ocağında çalışan hər bir müəllim üçün halallıq, səmimiyyət əsas meyardır. Böyük istedad sahibidir, müəllimlərini də belə görmək istəyir. Məktəbimizi bitirib ali məktəbə daxil olanların sayı hər il artır".

Ümumiyyətlə, Azər müəllim gözəl direktor olmaqla əqidə, əmək adamı kimi xalqın özünəməxsusluğunu yaşadan bütün mənəvi-əxlaqi dəyərləri, müsbət keyfiyyətləri qoruyub saxlayan, gələcəyə aparan şəxsiyyətdir.

Azər müəllimin həyat və fəaliyyəti dərin bilikli, milli-mənəvi dəyərlərə hörmət edən, vətənini sevən nəsil tərbiyə etməklə bitmir. Ölkəmizin ictimai-siyasi, mədəni inkişafında da fəaldır. Yeni Azərbaycan Partiyasının üzvü kimi ulu öndərimiz Heydər Əliyevin müdrik dövlətçilik konsepsiyasının layiqli davamçısı olan Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin apardığı titanik idarəçilik və dövlətçilik fəaliyyətini ürəkdən dəstəkləyir, müstəqil dövlətimizin həyatında əsl vətəndaş mövqeyini göstərir. Azər müəllim 71 saylı seçki dairəsinin 19 saylı seçki məntəqəsinin sədri olmaqla da təşəbbüskar, fəal ictimai insandır. Həm də respublikada yayımlanan "Orta təhsil" jurnalının redaktorudur.

A.Mirzəyev qayğıkeş ata, gözəl ailə başçısıdır. Bu ailədə olan məhəbbət, səmimiyyət nümunə göstərilir. Ömür-gün yoldaşı Gülxar xanımla 3 uşaq böyüdüblər. Onlar xalqa, vətənə layiqli övladlar olaraq ailə ocağını şərəfləndirirlər.

**Zəfər Orucoğlu,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "İlin vətənpərvər adamı" və "Azərbaycan bayrağı" mükafatları laureatı**

# Polşada Azərbaycan musiqisinə həsr edilmiş tədbir keçirilib

**Polşanın Poznan şəhərində Adam Miskeviç adına Poznan Universitetinin türkologiya fakültəsinin tələbəsi Zuzanna Goslavskanın təşkilatçılığı ilə Azərbaycan musiqisi gecəsi keçirilib.**

Azərbaycanın Polşadakı səfirliyindən APA-ya verilən məlumata görə, gecədə Həmid İbadullayev (balaban/dəf), Monika Koşçelna (skripka/kamança), Leşek Vıpixin (gitara) ifasında Azərbaycan musiqisindən nümunələr səsləndirilib. Tədbir zamanı həmin fakültənin magistri Radoslav Andjeyevski tərəfindən Azərbaycana həsr edilmiş təqdimat keçirilib. Tədbirdə 100-dən çox polşalı dinləyici iştirak edib. Gecədə, həmçinin Azərbaycan səfirliyinin əməkdaşları iştirak edib və açılış zamanı səfirliyin ikinci katibi Xuraman İsmayılova çıxış edərək səfir Həsən Həsənovun adından qonaqları salamlayıb, Azərbaycan musiqisinə göstərilən diqqətə görə təşəkkürünü bildirib və iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

